XİDMƏTİN UĞURLU TƏŞKİLİ KOMPLEKS İŞDİR

99713 saylı hərbi hissənin nümunəvi və peşəkarlığı ilə seçilən xidmətlərindən biri avtomobil və zirehli texnika xidmətidir.



Nəqliyyat vasitələrinin sazlığı döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasının əsas göstəricilərindəndir. Xidmət rəisi mayor Azər Şabanov döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və istənilən döyüş tapşırığının uğurlu icrasında avtomobil xidmətinin rolunun böyük olduğunu nəzərə çatdırdı.

O, nəqliyyat vasitələrinin istismarının Daxili İşlər Nazirinin "Daxili Qoşunlarda avtomobil xidmətinin təşkilinə dair təlimatın" təsdiq edilməsi və Daxili Qoşunların Komandanının "Yanacaq-sürtkü materiallarının və avtomobil əmlaklarının sərfi, avtomobil və qaraj avadanlıqlarının istismarı barədə" müvafiq əmrlərin tələbləri əsasında təşkil olunduğunu söylədi: "Sahə yerbəyər mərasimindən sonra arazidə maşınların saxlanc yerləri nəzərdən keçirilir. Parka daxil olan sürücü heyəti dəstələrin texnikləri tərəfindən ərəziyə gətirilir və avtomobillərə texniki qulluq göstərən hərbi qulluqçuların təhlükəsizlik qaydaları ilə tanış olmaları barədə siyahılar təqdim olunur. Yalnız bundan sonra sürücülərə gün ərzində təhkim olunmuş avtomobil və zirehli texnikalara texniki qulluğun göstərilməsi barədə tərəfimdən müvafiq fərdi tapşırıqlar verilir".

Hər bir avtomobil xəttə çıxmazdan əvvəl maşın böyüyünün və sürücünün sənədləri park növbətçisi tərəfindən, maşının sazlığı isə texniki nəzarət məntəqəsinin rəisi tərəfindən yoxlanılır. Bu zaman xidmət rəisi də öz növbəsində maşın böyüyü və sürücünü yol hərəkəti qaydalarına ciddi riayət etmələri barədə təlimatlandırır. Xətdən qayıdan nəqliyyat vasitəsinin, park növbətçisi və TNM rəisinə təqdim olunduqda, bir daha vəziyyəti yoxlanılır, avtomobil yanacaq doldurma məntəqəsindən keçirilərək, yuyulur, saxlanca qoyulur.

Ümumiyyətlə, yol-nəqliyyat hadisələrinin qarşısının alınması Daxili Qoşunların Komandanlığının ən çox diqqət yetirdiyi məsələlərdən biri olduğu üçün xidmət rəisi mayor A.Şabanov tərəfindən mütəmadi olaraq həm sürücülər, həm də fərdi avtomobil sahibləri olan hərbi qulluqçularla nəqliyyat vasitələrinin istismarı, yol hərəkəti qaydaları mövzularında məşğələlər keçirilir.

Bu məşğələlər, eyni zamanda, Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən də təşkil olunur, şəxsi heyətin sənədləri və avtomobillərin texniki vəziyyəti yoxlanılır. Nəticə etibarıylə görülən bütün işlər yol hərəkəti qaydalarının pozulma hallarının minimuma endirilməsinə səbəb olur. Belə ki, ötən ay ölkəmizdə keçirilən "Formula-1" Avropa Qran-Prisi zamanı xidmətə cəlb olunan şəxsi heyətin xidmətaparma yerlərinə daşınması zamanı nəqliyyat vasitələrinin işlək olması, sürücülərin bacarığı nəticəsində heç bir yol-nəqliyyat hadisəsi baş verməmişdir. Maşın karvanının idarə olunmasında avtomobil və zirehli texnika xidmətində zabit mayor Nuşirəvan Əliyevin xidmətini xüsusilə qeyd etmək lazımdır.

Həmçinin, hər bir xidmətin keyfiyyətli təşkilinin kompleks iş olduğunu vurğulayan xidmət rəisi baş çavuş Bəhtul Niftəliyevin, çavuş Rövşən Qasımovun, əsgər Elvin Quliyevin fəaliyyətini də müsbət qiymətləndirdi.

leytenant N.Ağayeva

NÜMUNƏVİ XİDMƏT

"ŞƏXSİ HEYƏTİN XİDMƏTƏ TAM HAZIR OLMASI ÜÇÜN BÜTÜN ZƏRURİ TƏDBİRLƏR GÖRÜLÜR"

Mühafizə taqımı komandirinin müavini kiçik gizir Mahmud Əliyev Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularındandır.

O, 1993-cü il avqustun 19-da Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olub. Naxçıvan Musiqi Kollecində təhsil alıb və 2013-cü ildə

kolleci müvəffəqiyyətlə bitirib. 2013-2014-cü illərdə Müdafiə Nazirliyinin hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ilin sentyabr ayından isə Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Xidməti vəzifə borclarının öhdəsindən layiqincə gəldiyinə görə dəfələrlə mükafatlandırılıb.

Taqımda daxili qayda-qanunun, hərbi intizamın qorunub saxlanılmasına ciddi nəzarət edən kiçik gizir M.Əliyev, eyni zamanda, tabeçiliyində olan hər bir hərbi qulluqçuya şəxsi keyfiyyətlərinə görə yanaşmağı bacarır, ehtiyaclarını dərindən öyrənir, diqqət və qayğısını əsirgəmir. Onların əsl hərbçi kimi formalaşmasında üzərinə düşən məsuliyyəti dərk edərək, bu istiqamətdə səylə çalışır.

O, eyni zamanda şəxsi heyətin hərbi biliklərə yiyələnməsində keçirilən məşğələlərin əhəmiyyətini xüsusilə qeyd edir. Bildirir ki, bu zaman hərbi qulluqçularda vətənpərvərlik hissinin daha da gücləndirilməsinə, şəxsi heyətin Vətənə sevgi, dövlət və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasına xüsusi önəm verilir. Hərbi qulluqçuların fiziki və atəş hazırlığı da ciddi nəzarətdə saxlanılır.

Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, kiçik gizir M.Əliyev hərbi hissədə bölmələr üzrə cari ilin 2-ci tədris dövrünün yekunlarına görə 1-ci yerə layiq görülüb. O, bundan sonra da hissədə birinciliyini qoruyub saxlamaq üçün əzmlə xidmətini davam etdirəcəyini söyləyir.

leytenant X.Tağıyeva

TƏŞƏBBÜSKARLIQ VƏ ƏZMKARLIQ XİDMƏTİN ƏSASIDIR

Şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması bölmənin əsas tapşırığıdır

El dilində belə bir deyim var: "Niyyətin hara, mənzilin ora". Həqiqətən də insan qarşısına məqsəd qoyanda istənilən sahədə uğur əldə etməyi bacarır. Sadəcə gördüyün işin nəticəsi sənin bu istiqamətdə nə dərəcədə məqsədyönlü olmağından asılıdır.

Məhz bu kontekstdə 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri baş leytenant Rəhim Soltanov məsuliyyətli bir zabit kimi tərifə layiqdir. Nümunəviliyi, intizamı ilə hissə komandanlığının rəğbətini qazanan komandir

daim öz üzərində çalışır, peşə vərdişlərinin təkmilləşdirilməsi üçün bütün zəruri tədbirlərdən istifadə edir. Bunların nəticəsidir ki, komandiri olduğu bölmə 2016-cı ilin ümumi inspeksiya yoxlamasının nəticələrinə görə hərbi hissənin bölmələri arasın-da ən yüksək balı toplayıb.

Qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi yönündə şəxsi heyətin hər zaman əzmlə çalışdığını deyən baş leytenant R.Soltanov qazanılan uğurların davamlı olacağını bildirdi: "Xidmətdə uğur qazanmaq həqiqətən də çətindir. Lakin ən çətini qazanılan uğuru qoruyub saxlamaqdır. Tədris dövrü ərzində bölmədə döyüş təlimi Daxili Qoşunların xüsusi vasitələrin tətbiqi bölmələrinin tədris proqramına və hərbi hissə komandirinin tələblərinə uyğun planlaşdırılaraq keçirilib. Yük-sək döyüş hazırlığının saxlanılmasına, kiçik nöqsanlar istisna olmaqla, kobud intizam pozuntusuna yol verilmədiyinə görə bölməmiz xidmətdə fərqlənib".

Bölmədə komandir heyatinin təlim zamanı intizamlı və fəal olması, davranış və hərəkətləri ilə tabeliyində olanlara nümunə göstərməsini tələb edən baş leytenant R.Soltanov qrupların da bu sahədə uğurlarını xüsusilə vurğuladı: "Hər bir komandir idarəetmə qabiliyyəti və metodiki cəhətdən hazırlıqlı olmalıdır. Qrup komandiri gizir Nurəddin Eyvazovu bu baxımdan bacarıqlı və savadlı hərbçi kimi xarakterizə etmək olar. Onun əzmkarlığı və tələbkarlığı sayəsində rəhbərlik etdiyi qrup "ələçı qrup" adını qazanıb. Bu gün qazandığımız uğurlar göz önündədir və hər birimizi sevindirir. Bu uğurların davamlı olması üçün bütün gücümüzü səfərbər edəcəyimizə, bundan sonra da daim səylə çalışacağımıza söz veririk".

Bundan başqa, bölmədə tərbiyə işi sastlarının vaxtında və keyfiyyətlə keçirilməsində tərbiyə işləri üzrə müavin baş leytenant Vüqar Əliyevin də xidməti təqdirləyiqdir. Belə ki, şəxsi heyət arasında əhval-ruhiyyənin yüksək olması üçün əlindən gələni əsirgəməyən baş leytenant V.Əliyev hərbi qulluqçularla fərdi söhbətlərin vaxtaşırı aparılmasına ciddi nəzarət edir. Hərbi qulluqçunun psixoloji durumunu, istər hərbi xidmətdə, istərsə də mülki həyatdakı problemlərini öyrənir və mövcud olan halda onların həllinə yardım göstərilməsini təmin edir.

Bölmənin qabaqcıl olmasının başlıca səbəbləri kimi hərbi intizamın möhkəmləndirilməsi, nizamnamədənkənar münasibət hallarının qarşısının alınması üzrə profilaktik tədbirlərin vaxtında görülməsi və ən əsası komandir heyətinin məşğələlərə metodiki cəhətdən hazırlığını qeyd edən komandir müavini günün nizam qaydalarına əsasən, yerbəyər mərasimində bölmə komandirlərinin müavinlərinə və qrup komandirlərinə tapşırıqlar verir, şəxsi heyəti təlim yerlərinə istiqamətləndirir. Təlimlərdə hərbi qulluqçuların tam tərkibdə iştirakına və məşğələlərin geniş şəkildə keçirilməsinə üstünlük verilir.

Əsas etibarilə ictimai-siyasi hazırlıq məşğələsində hərbçilərin fərdi keyfiyyətlərinin artırılmasına, zəif nəmimsənilmiş mövzular üzərində məşğələlərin təkrar təşkil olunmasına xüsusi diqqət yetirilir.

leytenant N.Ağayeva

"DÖYÜŞ XİDMƏTİNİ YERİNƏ YETİRƏN HƏRBİ QULLUQÇU AYIQ-SAYIQ, ÇEVİK, CƏSARƏTLİ VƏ ƏZMKAR OLMALIDIR"

"Əsgər" qəzetinin ötən buraxılışında 25033 saylı hərbi hissənin Ayrı yerləşən patrul taborunun bir neçə nümunəvi hərbi qulluqçusu barədə söz məlumat vermişdik. Bu sayımızda da nümunəvi xidməti ilə seçilən daha iki nəfər hərbi qulluqçu barədə danışmaq istərdim.

Leytenant Röyal Əsgərov

2008-ci ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Xidmətini müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində davam etdirib. 2012-2014-cü illərdə qoşunların Orta İxtisas Hərbi Məktəbini bitirərək, ilk zabit - "leytenant" hərbi rütbəsini alıb. Hazırda 25033 saylı hərbi hissənin Ayrı yerləşən patrul taborunda komendant taqımının komandiridir.

O, xidmətə cəlb olunan şəxsi heyətin seçiminə məsuliyyətlə yanaşır, onların fiziki və atəş hazırlıqlarını ciddi nəzarətdə saxlayır. Onun sözlərinə görə, döyüş xidmətini yerinə yetirən hərbi qulluqçu ayıq-sayıq, çevik, cəsarətli və əzmkar olmalıdır. Sadalanan keyfiyyətlərdən biri olmadıqda, hərbi obyektlərin etibarlı mühafizəsindən söhbət gedə bilməz. Komendant taqımında xidmət edən hər bir hərbi qulluqçu bunu yaxşı dərk edir və daima döyüş qabiliyyətini yüksək səviyyədə qoruyub saxlamaq üçün öz üzərilərində səylə çalışır.

Komendant taqımının fəal hərbi qulluqçularından biri də **əsgər Bayram Həzrətquliyevdir.** O, 1997-ci il yanvarın 1-də Şəmkir rayonu Ələsgərli kəndində anadan olub. Orta təhsilini doğma kənddə başa vurduqdan sonra 2012-2014-cü illərdə 1 nömrəli Bakı peşə məktəbində "Neft-qaz çıxartma operatoru" ixtisasına yiyələnib. 2015-ci ilin yanvar ayından qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Xidmət müddətində yuxarıda sadaladığımız keyfiyyətləri özündə cəmləşdirməyi bacaran Bay-



dalarına ciddi əməl etməyi tövsiyə edir. O, deyir ki, hər bir güclü ordunun təməlində nizam-intizam, sağlam və mehriban kollektiv durur. Əsgər B.Həzrətquliyev hərbi obyektlərin etibarlı müdafiə və mühafizəsini həyata keçirən komendant taqımının əsgərləri tərəfindən mövcud olan möhkəm nizam-intizamın bundan sonra da qorunub saxlanılacağını bildirdi.

baş leytenant T.Əlizadə

Allah rəhmət eləsin

25033 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Əfqan İbrahimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti gizir Aynur İlyasovaya **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin şəxsi heyəti çavuş Sahil Cabbarova **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

ƏSGƏR

№ 14 (480)
15 iyul
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

"2016-cı İL TARİXDƏ İSLAHATLAR İLİ KİMİ QALACAQ"

İyulun 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

İclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib.

Dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirdi. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən alındığını, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazinin işğaldan azad edildiyini diqqətə çatdırdı. "Münaqişə tezliklə həllini tapmalı, status-kvo dəyişilməlidir", - deyən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğuladı.

"Münaqişənin həllinin yeganə mümkün variantı mərhələli həll variantıdır", - deyən dövlətimizin başçısı buna nail olmaq üçün həmsədr ölkələrin və ATƏT-in Ermənistana ciddi təzyiq göstərmələrinin vacibliyini diqqətə çatdırdı.

Bu İlin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xarice səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyən Prezident İlham Əliyev çıxışında iqtisadi inkişaf proseslərindən də danışdı, cari ilin altı ayında ümumidaxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu dedi. Bildirdi ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb.

"2016-cı il tarixdə dərin islahatlar dövrü kimi qalacaq", - deyən dövlətimizin başçısı strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini bildirdi.

Sonra Müdafiə Sənayesi Naziri Yavər Camalov, Kənd Təsərrüfatı Naziri Heydər Əsədov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı ixracyönümlü iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi. Prezident İlham Əliyev dedi ki, bu il ölkədə dərman istehsalına başlanması, sənaye mərkəzlərinin

yaradılması istiqamətində, həmçinin Mingəçevirdə yüngül sənaye kompleksinin təməlinin qoyulması, hər bir rayonun sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı işlər davam etdirilir.

Azərbaycanda xalçaçılıq sənayesinin, baramaçılığın, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi, zəruri ərzaq məhsulları ilə təminatın, et və süd məhsullarına olan tələbatın ödənilməsi, meliorativ tədbirlərin davam etdirilməsi, torpaq - lardan səmərəli istifadə olunması, o cümlədən turizm sənayesinin yaradılması istiqamətində görülən tədbirlərin davamlı olması ilə bağlı tapşırıqlarını verən dövlətimizin başçısı son illərdə Bakıda keçirilən beynəlxalq tədbirlərin, həmçinin "Formula-1" Avropa Qran-Prisinin ölkəmizdə turizmin inkişafına ciddi dəstək verdiyini bildirdi. Bundan əlavə, Prezident İlham Əliyev "ASAN xidmət"in fəaliyyətinə toxunaraq artıq bu quruma yarandığı vaxtdan indiyə qədər 10 milyon müraciət edildiyini, ölkədə 9 "ASAN xidmət" mərkəzinin fəaliyyət göstərdiyini, bu il isə Masallı və Qəbələdə yeni mərkəzlərin yaradılacağını diqqətə çatdırdı. Əsassız yoxlamaların azaldılması ilə bağlı verdiyi tapşırıqların müvəffəqiyyətlə icra olunduğunu deyən Prezident İlham Əliyev 2016-cı ilin ikinci yarısının da uğurlu olacağına əminliyini ifadə etdi.

AZƏRTAC

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyulun 8-də Daxili İşlər Nazirliyində 2016-cı ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.

İclası açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov bildirib ki, dünyada və onun ayrı-ayrı regionlarında mövcud siyasi gərginliklərə, iqtisadi böhrana baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən hərtərəfli islahatlarda və quruculuq işlərində yaxından iştirak edən daxili işlər orqanları tərəfindən respublikada ictimai asayiş və təhlükəsizlik 2016-cı ilin 6 ayında da etibarlı qorunub.

Cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan müsbət təmayüllər davam edib, cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində digər hüquq mühafizə strukturları ilə birgə həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verib, kriminogen durum nəzarətdə saxlanılıb. Daxili işlər orqanları və Daxili Qoşunlar digər hüquq mühafizə və xüsusi xidmət strukturları ilə qarşılıqlı əlaqədə respublikanın müxtəlif yerlərində keçirilmiş yüzlərlə kütləvi və beynəlxalq tədbirdə, o cümlədən «Formula-1» Avropa Qran-Pri yarışlarında asayişin və təhlükəsizliyin təmini sahəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirildər. O, qeyd edib ki, şəxsi heyətin gərgin əməyi dövlətimizin başçısı tərəfindən növbəti dəfə yüksək qiymətləndirilərək bir qrup əməkdaş dövlət mükafatları ilə təltif olunub, ali xüsusi rütbələrə layiq görülüb.

Geniş məruzə ilə çıxış edən Daxili İşlər Nazirinin birinci müavini polis general-leytenantı Vilayet Eyvazov bildirib ki, hesabat dövründə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyektləri üzrə 14.251 cinayət qeydə alınıb. Onların 94,2 faizi və ya 13,429-u daxili işlər və prokurorluq orqanları tərəfindən ibtidai araşdırılması aparılan hüquqazidd əmələr olub. Bu cinayətlərin 85,2 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 14,8 faizini ağır və xüsusilə ağır növlər təşkil edib. Məqsədyönlü surətdə davam etdirilən profilaktik fəaliyyət nəticəsində cinayətkarlığın dinamikasında son illər mövcud olan müsbət təmayül də qorunub saxlanılıb.

Belə ki, şəxsiyyət əleyhinə olan cinayətlərin strukturunda qəsdən adam öldürmələr 5,2 faiz, zorlamalar 16,7 faiz, avtomədəniyyətən qəzrılması 13 faiz, xuliqan-lıqlar 6,4 faiz, yol-nəqliyyat hadisələri 13,4 faiz, qəzalarda həlak olanların sayı 25,3 faiz, xəsarət alanların sayı 13,2 faiz azalıb. Qeyd olunub ki, cinayətlərin açılması sahəsində əməliyyat-axtarış tədbirləri və prosessual fəaliyyət əvvəki illərdə olduğu kimi, kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının və qanuni mənafelərinin bərpasına yönəlib. Cinayətlərin açılması yaxşılaşaraq 84,4 faiz təşkil edib. O cümlədən, ağır və xüsusilə ağır cinayətlərin açılması 0,5 faiz, şəxsiyyət əleyhinə olan cinayətlərin açılması 1,2 faiz, qəsdən adam öldürmə-yə cəhdlərin açılması 2,3 faiz, qəsdən sağlamlığa ağır zərər vurmaların açılması 1,1 faiz, mülkiyyət əleyhinə olan cinayətlərin açılması 2,6 faiz, xuliqanlıqların açılması 2,4 faiz yaxşılaşıb.

Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bəri qalmış 205, əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində "isti izlərlə" isə 581 və ya müqayisə edilən dövrə nisbətdə 24,4 faiz çox cinayət açılıb.

Polis general-leytenantı Vilayet Eyvazov bildirib ki, xidməti funksiyaların həyata keçirilməsində müasir iş metodlarının, o cümlədən, informasiya texnologiyalarının tətbiqi də müsbət nəticələr verib. "102" Zəng mərkəzinə daxil olan məlumatlar üzrə görülən operativ tədbirlərlə 2759 hüquqazidd əmələn qarşısı alınıb, 2022 cinayət işi başlanılıb. "Təhlükəsiz şəhər" xidmətinin texniki imkanları ilə 162 cinayət açılıb, 6366 yol-nəqliyyat qəzası, piyadaların vurulmaması ilə nəticələnən 135 hadisə aşkarlanıb, axtarışda olan 68 avtomobil saxlanılıb.

Cinayətlərdə təqsirləndirilən və şübhəli bilinən şəxslərin axtarışının nəticələri 4,1 faiz yaxşılaşaraq istintaq və məhkəmə orqanlarından yaynan 1536 nəfər tutulub. İnterpolun Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilmiş 51 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 26 şəxsin yeri müəyyən olunub. Ümumilikdə, axtarılanların 55,6 faizinin tutulması təmin edilib.

Xidməti fəaliyyətdə böyük əhəmiyyət kəsb edən mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 611 ağır və xüsusilə ağır cinayət törətmiş 141 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 90 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Dövlətin iqtisadi təhlükəsizliyinin qorunmasına yönəlmiş əməliyyat tədbirləri ilə 18 saxta pul hazırlama və satma cinayəti aşkarlanıb. Nəticədə qeyri-leqal dövriyyədən ümumi məbləği 24.700 manat və 10 min ABŞ dolları olan 347 ədəd əskinas, habelə istifadə müddəti ötmüş 13 tona yaxın yeyinti məhsulu və tikinti materialı çıxarılıb.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də səmərəli olmaqla, əsas diqqətin qeyri-leqal dövriyyədən daha böyük çəkidə narkotik vasitələrin çıxarılmasına yönəldiyi nəzərə çatdırılıb. Nəticədə narkotiklərlə əlaqədar müəyyən edilmiş 1675, o cümlədən onların satışı ilə bağlı 429 fakt üzrə ötən ilin 6 ayı ilə müqayisədə 177 kiloqram çox, bütövlükdə, 609 kiloqram narkotik vasitə götürülüb.

Həyata keçirilən əməliyyat və profilaktik tədbirlərlə 75 nəfərdən ibarət 31 cinayətkar qrup zərərsizləşdirilib, 62,8 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, ümumi çəkisi 102 tona yaxın olan çətənə və xaş-xaş kolu aşkarlanaraq yaşıl kütlə halında məhv edilib.

İnsan alverinə qarşı mübarizədə müvafiq qanunvericilik aktları və Milli Fəaliyyət Planı əsasında görülən işlər də sistemli və ardıcıl olub. Ötən ilin 6 ayı ilə müqayisədə 16,2 faiz çox, yaxud 93 insan alveri cinayəti müəyyən edilib. Bu faktlar üzrə başlanılmış cinayət işlərinin istintaqı ilə 16 nəfər məhkəmə məsuliyyətinə verilib, həmin əmələrin qurbanı olmuş 52 şəxsin cəmiyyətə reinteqrasiyası təmin olunub.

Nazirin birinci müavini qeyd edib ki, kriminal təhdid və çağırışlara qarşı cavab tədbirlərinin görülməsində, tərədilmiş əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşmasında mühüm funksiyaları həyata keçirən istintaq və ixtisaslaşmış təhqiqat qurumları üzrə fəaliyyətin nəticələri də ümumən qənaətbəxş olub. Prosessual fəaliyyətin əsas göstəricilərindən olan dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödətdirilməsi işində də müsbət təmayül müşahidə olunub və bu istiqamətdə işin nəticələri 7,9 faiz yaxşılaşaraq 86,8 faiz təşkil edib.

davamı səhifə 2-də

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

əvvəli səhifə 1-də

Cinayət xarakterli məlumatlara baxılmasında və qərarlar qəbul edilməsində əhəmiyyətli rolu olan təhqiqatçıların iş həcmi isə cari ilin 6 ayında təxminən 28 faiz artıb.

Məruzəçi bildirib ki, xidməti fəaliyyətin əsas istiqamətlərindən biri olan yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində həyata keçirilən profilaktik tədbirlər də müsbət nəticələr verib. Belə ki, respublikada dövlət qeydiyyatına alınmış nəqliyyat vasitələrinin sayının 15 mindən çox artması fonunda, yol-nəqliyyat hadisələrinin, qəzalarda ölənlərin və xəsarət alanların sayı nəzəraçarpacaq dərəcədə azalıb.

Konkret olaraq, 2015-ci ilin 6 ayı ilə müqayisədə hesabat dövründə 25 faiz çox və ya 1.402.254 yol hərəkəti qaydaları əleyhinə olan inzibati xəta aşkarlanıb. Bununla yanaşı, avtomobilinin şüşələrinə pərdə və plyonka çəkilmiş 2.404 şəxs, həmçinin nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə edən 6.574 nəfər və avtoxuliqanlığa görə 183 sürücü barəsində qanunauyğun tədbirlər görülüb. Həmin qayda pozuntuları ilə bağlı qanunvericiliyin sərtləşdirilməsinin, məqsədli şəkildə aparılan təbliğat işinin və keçirilən reydlərin nəticəsi olaraq, onların sayında ilbəil azalma qeydə alınır.

Vətəndaşların şəxsiyyəti təsdiqləyən sənədlərlə təmini üzrə fəaliyyət çərçivəsində 59,2 faiz çox, yəni 972.383 nəfərə şəxsiyyət vəsiqəsi, 179.792 nəfərə isə ümumvətəndaş pasportu verilib.

Mühafizə xidmətləri tərəfindən qorunan obyektlərdə 94 oğurluq hadisəsinin qarşısı alınmaqla 41 nəfər, habelə xidməti marşrutlarda 56 cinayət törətmiş 65 şəxs yaxalanıb.

Məruzədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində daim təkmilləşən və inkişaf edən Daxili Qoşunlarda xidmət-döyüş hazırlığının və səfərbərliyin yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, maddi-texniki təchizatın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin planlı şəkildə davam etdirildiyi nəzərə çatdırılıb.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin və zəruri təşkilati-əməli tədbirlərin DİN rəhbərliyinin, xüsusən Daxili İşlər Nazirinin şəxsi nəzarəti altında cari ilin birinci yarısında da yerinə yetirildiyi, hesabat dövründə 3 mindən çox, o cümlədən qabaqcadan təsdiqlənmiş cədvəl əsasında respublikanın ayrı-ayrı bölgələrində 2849 vətəndaşın qəbul edildiyi, qaldırılan məsələlərin əksəriyyətinin yerində həll olunduğu vurğulanıb.

Polis general-leytenantı Vilayət Eyvazov dövlət başçısının diqqət və qayğısı sayəsində şəxsi heyətin yüksək tələblərə cavab verən şəraitdə xidmətinin təşkili, peşə hazırlığının artırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastruktur-turan təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə də ətraflı məlumat verib.

Məruzə ətrafı çıxışlarda nazirliyin ayrı-ayrı struktur qurumlarının, şəhər, rayon polis orqanlarının rəisləri görülmüş işlər, mövcud nöqsanların aradan qaldırılması üzrə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Ramil Usubov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətin bütövlükdə qənaətbaxş olduğunu, qanunla müəyyən edilmiş vəzifələrin layiqincə yerinə yetirildiyini, habelə cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiyini, eləcə də digər hüquq-mühafizə orqanları ilə birgə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin hazırda da uğurla davam etdirildiyini bildirib.

Cinayətkarlığa qarşı mübarizə və ictimai qaydanın qorunmasında şəxsi heyətin fəaliyyətini, ümumilikdə, qənaətbaxş hesab edən Nazir, bununla yanaşı, Kolleqiya iştirakçılarının diqqətini həlli vacib olan məsələlərə yönəldib, tapşırıq və tövsiyələrini verib.

Daxili İşlər Naziri deyib ki, daxili işlər orqanlarının əməliyyat-xidməti fəaliyyətində olan nöqsan və çatışmazlıqlar qısa müddətdə aradan qaldırılmalı, cinayətkarlığa qarşı mübarizədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi ciddi nəzarətdə saxlanılmalı, şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində tədbirlərin görülməsi davam etdirilməlidir.

Nazir əmin olduğunu bildirib ki, şəxsi heyət cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələri, eləcə də ölkədə hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsi, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əmr və göstərişlərini tam yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyə cəkdir.

YAY TƏDRİS DÖVRÜNÜN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

İyul ayının 4-də Daxili Qoşunların Ali Hərbi məktəbində və hərbi hissələrində zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə yay tədris dövrünün açılış mərasimi keçirilib. Tadbirlərdə Daxili Qoşunların Baş İdarəsindən yüksək rütbəli vəzifəli şəxslər iştirak ediblər.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və respublikanın suverenliyi uğrunda canlarını qurban verən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Dövlət himni ifa olunub.

Ardınca şəxsi heyət qarşısında hərbi hissə komandirləri çıxış edərək yay tədris dövrünün açılışı münasibətilə onları təbrik ediblər. Ötən tədris dövründə hərbi hissələrin başlıca fəaliyyətinin şəxsi heyətin peşəkarlığının artırılması, maddi-texniki tədris bazasının təkmilləşdirilməsi, nəzəri və praktiki məşğələlərin metodiki cəhətdən düzgün təşkili istiqamətində qurulduğu bildirilib.

Həmçinin, qış tədris dövründə əsas diqqətin zabit və gizirlərin metodiki hazırlığına, hərbi qulluqçulara psixoloji, habelə fiziki dözümlülük vərdişlərinin aşılanmasına yönəldiyi nəzərə çatdırılıb. Eləcə də, hərbi qulluqçuların onlara təhkim olunmuş silah və döyüş texnikasının taktiki-texniki xüsusiyyətlərinə mükəmməl yiyələnmələrinin, hissənin şəxsi heyəti ilə döyüş, o cümlədən ictimai-siyasi hazırlıq məşğələlərinin keyfiyyətlə keçirilməsinin diqqət mərkəzində saxlanıldığı vurğulanıb. Ümumilikdə, ötən tədris dövründə döyüş təlimi üzrə hərbi hissələrin qarşısında duran bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Tədbirdə iştirak edən Baş İdarənin nümayəndələri tərəfindən qeyd olunub ki, ötən yarımildə qarşıda duran əsas vəzifələrdən biri olan respublikada ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə verilmiş tapşırıqlar uğurla həyata keçirilib. Yay tədris dövründə hərbi hissənin fəaliyyətinin daha da möhkəmləndirilməsi, eyni zamanda qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi üçün döyüş təlimi istiqamətində görüləcək işlərdən danışılıb. Bildirilib ki, əldə olunmuş nailiyyətlər qorunmalı, daha da yüksək nəticələr əldə etmək üçün bütün imkanlardan səmərəli istifadə olunmalıdır. Ötən yarımildə döyüş təlimində nəticələri zəif olan bölmələr bundan nəticə çıxartmalı və uğurlar əldə etmək üçün səylə çalışmalıdır.

Daxili Qoşunların yeni tədris dövründə müəyyən edilmiş vəzifələrin uğurla həyata keçirəcəyinə əminlik ifadə edilib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

baş leytenant T.Əlizadə

Şəhidlərimiz

AZƏRBAYCAN UĞRUNDA İRƏLİ!

Tarixən yurdumuza göz dikən mənfur qonşularımızın keçən əsrin sonlarında torpaqlarımıza yenidən başlayan məlum təcavüzü Vətənimizin mərd oğullarını silaha sarılmağa vadar etdi...

Ana yurdun belə ağır günlərində digər bölgələrimiz kimi Qusarın igid oğulları da müqəddəs torpaqlarımızın müdafiəsinə yollandılar. Qusar rayonunun Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarından 5 nəfəri (baş leytenant Ruber Səfərəliyev, gizir Vahid Şahnəzərov, əsgərlər Bəhruz Ağaverdiyev, Seyid Dadaşov və Tağı Əlicanov) məhz Daxili Qoşunların cəsur döyüşçüləri idi.

Beləliklə, Daxili Qoşunların ilk şəhidlərindən biri olan baş leytenant Ruber Səməndər oğlu Səfərəliyevin həyat və döyüş yolu barədə məlumatı sizlərə təqdim edirik.

SƏFƏRƏLİYEV RUBER SƏMƏNDƏR OĞLU

Baş leytenant R.Səfərəliyev 1966-cı ildə respublikamızın füsunkar təbiətə malik dilbər guşələrindən biri olan Qusar rayonunun Xuray kəndində anadan olub. Orta təhsilini Qusar şəhər 3 saylı orta məktəbində alan Ruberin hələ uşaq yaşlarından ən böyük arzusu hərbçi olmaq idi. Buna görə də orta məktəbi qurtardıqdan sonra sənədlərini indiki Heydər Əliyev adına Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbinə verib. 1987-ci ildə bu ali hərbi təhsil ocağını bitirən R.Səfərəliyev "leytenant" rütbəsilə iki il Ukraynanın Lvov şəhərində xidmət edib. Gənc zabitin sonrakı xidmət yeri isə sovet qoşunlarının o zaman Özbəkistan Respublikasının Əndican şəhərində yerləşən hərbi hissəsi olub.

XX əsrin sonlarında erməni daşnaklarının müqəddəs torpaqlarımıza başlayan məlum təcavüzündən sonra respublikamıza dönən R.Səfərəliyev, Daxili Qoşunların sıralarında baş leytenant rütbəsində, bölük komandiri kimi bir müddət daxili sabitliyin keşiyində dayanıb. Bir qədər sonra isə Vətən torpaqlarının düşməndən müdafiəsinə yollanıb. Ruberin öz işini yüksək səviyyədə bilən peşəkar zabit kimi müsbət keyfiyyətləri onunla bir cəbhədə çiyin-çiyinə xidmət edən silahdaşlarının xatirələrində bu gün də yaşayır.

Vaxtı ilə igid döyüşçü ilə bir taborda vuruşaraq ağır yaralanmış və o dövrdə baş leytenant kimi digər bölüyün komandiri olmuş polkovnik-leytenant Adil Bəxtiyar oğlu Xəlilov Respublikasının Ermənistan cinayətkar qruplaşmadan İrəvan şəhərini azad etmə uğrunda gedən döyüşlərdə göstərdiyi fədakarlıqdan danışır. Bildirir ki, əldə olunmuş nailiyyətlər qorunmalı, daha da yüksək nəticələr əldə etmək üçün bütün imkanlardan səmərəli istifadə olunmalıdır. Ötən yarımildə döyüş təliminə nəticələri zəif olan bölmələr bundan nəticə çıxartmalı və uğurlar əldə etmək üçün səylə çalışmalıdır.

Daxili Qoşunların yeni tədris dövründə müəyyən edilmiş vəzifələrin uğurla həyata keçirəcəyinə əminlik ifadə edilib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

baş leytenant T.Əlizadə

16 iyun 1992-ci il. Naxçıvanlı yaxınlığındakı Pirtəpə yüksəkliyinin azad edilməsi uğrundakı döyüşlər Ruberin son döyüşü oldu...

Kapitan B.Əliyev məqaləsində şəhid qəhrəmanımızın son döyüşünü böyük ürək ağrısı ilə xatırlayır: "Naxçıvanlı kəndinə hücum edən ermənilər güclü müqavimətlə rastlaşmışdılar. Gecə kəndin ətrafında yerləşən Pirtəpə adlanan dağa hücum etmək planlaşdırılmışdı. Mühüm strateji əhəmiyyət kəsb edən bu yüksəkliyi azad edə bilsəydik, mövqelərimizi bir qədər möhkəmləndirmiş olacaqdıq. Çətinliklə də olsa, gecə dördün yarısı zirvəyə çatmışdıq. Birdən baş leytenant R.Səfərəliyevin "İrəli, türk oğulları!" əmrini eşitdik. Təxminən bir saatlıq qızğın atışmadan sonra itki vermədən xeyli irəlilədik. Artıq səhər açılsa da atışma davam edirdi. "Quldurların axırı çatıb" - bu sözləri Ruber tez-tez təkrar edirdi. Onunla mənim aramda 7-8 metr məsafə olardı. O, "qurtardı daha" - deyib irəli atıldı. Elə bu vaxt sinəsi namərd gülləsinə tuş gəldi. Cəld iki əsgərlə ona tərəf sürünməyə başladım. Biz ona çatanda dilindən "Azərbaycan uğrunda, Vətən uğrunda, uşaqlar irəliyə" sözlərini eşitdik. Amma artıq gec idi, o, özü irəliyə doğru gedə bilmədi...".

Baş leytenant R.Səfərəliyevə bu döyüşdə qəhrəmancasına şəhid oldu. Vətənin qəhrəman oğlu R.Səfərəliyev Xuray kənd qəbiristanlığında dəfn edilib.

Respublikamızın ərazi bütövlüyü, suverenliyi uğrunda gedən döyüşlərdə göstərdiyi şücaət və igidliyə görə Azərbaycan Respublikası Prezidentinin 9 mart 2007-ci il tarixli müvafiq sərəncamı ilə baş leytenant R.Səfərəliyev "Hərbi xidmətlərə görə" medalı ilə (ölümündən sonra) təltif edilmişdir.

Xuray kənd orta məktəbi hazırda Daxili Qoşunların cəsur döyüşçüsü, şəhid R.Səfərəliyevin adını daşıyır.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov,
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

HƏRBİ XİDMƏTƏ YENİ QƏBUL OLUNAN ƏSGƏRLƏR DAXİLİ QOŞUNLARIN MUZEYİ İLƏ TANIŞ OLUBLAR

Daxili Qoşunların tarixi, torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıq nümunələri, inkişafı və vəzifələri barədə geniş məlumat əldə etmək məqsədilə, sıralarımıza yeni qəbul olunmuş əsgərlər iyulun 9-da Daxili Qoşunların muzeyində olublar.

Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri kapitan Anar Əhmədov çağırışçıları muzeydə yerləşdirilmiş kompozisiya və Daxili Qoşunların tarixini əks etdirən eksponatlarla tanış edib.

Qeyd olunub ki, muzey 2 böyük, 4 kiçik zaldan, muzey fondundan ibarətdir.

Qoşunların döyüş yolu, hərbi qulluqçularımızın rəşadəti barədə əsgərlərə ətraflı məlumat verilib, qəhrəmanlarımızın istifadə etdikləri silah-sursatlar, geyim formaları nümayiş etdirilib.

Həmçinin, burada Daxili Qoşunların həyata keçirdiyi xüsusi əməliyyatlar, xüsusi-taktiki təlimlər, istifadə olunan xüsusi vasitələr, əldə etdiyi nailiyyətlər, onun inkişafını əks etdirən fotoşəkillər təqdim olunub. Qoşunların beynəlxalq əlaqələri, müxtəlif təşkilatlar tərəfindən verilmiş eksponatlar da çağırışçılar tərəfindən maraqla qarşılanıb.

Hərbi qulluqçular ikinci mərtəbədə Ümummilli Lider Heydər Əliyev və Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdikləri diqqət və qayğını əks etdirən guşə ilə də tanış olublar.

Sonda kapitan A.Əhmədov torpaqları işğal altında olan ölkədə hərbi xidmətin vacibliyini bir daha vurğulayaraq, onların hər birini mübariz olmağa, qəhrəmanlarımızdan, şəhid hərbi qulluqçulardan nümunə götürərək, Vətəni göz bəbəyi kimi qorumağa, lazım gələrsə onun uğrunda hər an canından keçməyə hazır olmağa çağırıb.

leytenant X.Tağıyeva

Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, iyul ayının 1-dən 18 yaşı tamam olmuş, habelə yaşı 35-dək olan Azərbaycan Respublikasının vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı başlanıb.

Sərəncamdan irəli gələn tələbləri yerinə yetirmək üçün Daxili Qoşunların hərbi hissələrində də bütün zəruri tədbirlər həyata keçirilib, çağırışçıların xidmətə qəbulu davam etdirilməkdədir.

ÇAĞIRIŞÇILARIN HƏRBİ XİDMƏTƏ QƏBULU ÜZRƏ BÜTÜN TƏŞKİLATİ TƏDBİRLƏR YEKUNLAŞDIRILIB

Qoşunlara çağırışçıların qəbulu üçün hərbi hissələrdə hazırlıq işləri tam həcmdə görülüb. Əsgərlərin qəbulu ilə əlaqədar Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmrinə əsasən, əsgər yataqxanası hazırlanıb, geyim təminatı, eyni zamanda, digər tədbirlər yekunlaşdırılıb.

Əmrlə yaradılmış komissiya tərəfindən qəbul zamanı çağırışçıların mənəvi-psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi, mövcud xəstəliklərin, xüsusi istedadı ilə seçilənlərin aşkar olunması istiqamətində müvafiq işlər görülür. Bununla yanaşı, onların hazırlanmasına cəlb olunan bütün kateqoriyalı hərbi qulluqçulara metodiki-təlim toplanışları keçirilib.

Metodiki-təlim toplanışlarında əsgərlərin təlimi üzrə atəş, fiziki və sıra hazırlığı məşğələlərinin metodikası öyrədilərək, hərbi nizam-intizamın və hərbi qanunvericiliyin çağırışçıya aşılanması, bölük təsərrüfatının təşkili, yanğın təhlükəsizliyi və ümumilikdə, təhlükəsizlik qaydaları üzrə mövzular tədris olunub.

Təlim toplanışlarının sonunda çağırışçıların hazırlanması kursuna cəlb olunan hərbi qulluqçulardan məqbullar qəbul edilib.

baş leytenant T.Əlizadə

Hərbi hissələrdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasında, şəxsi heyətin psixoloji təminatının təşkilində, eləcə də hissənin xidmət-döyüş fəaliyyətində mənəvi-psixoloji durumunun yüksəlməsi üçün həyata keçirilən tədbirlərdə psixologların rolu böyükdür. Sıralarımıza yeni qəbul edilmiş çağırışçıların ictimai-psixoloji adaptasiya xüsusiyyətlərinin öyrənilməsi, onların hərbi xidmətə uyğunlaşmasına köməklik göstərilməsi də onların vəzifələridir.

ÇAĞIRIŞÇILARIN MƏNƏVİ-PSİXOLOJİ KEYFİYYƏTLƏRİNİN DƏRİNDƏN ÖYRƏNİLMƏSİ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Bu, gələcəkdə yüksək döyüş hazırlığının qorunub saxlanılması şərtlərindən vacib amillərdəndir

Məlum olduğu kimi, hazırda Daxili Qoşunlarda çağırışçıların qəbulu davam etdirilməkdədir. Bu istiqamətdə 25031 saylı hərbi hissədə bütün zəruri tədbirlər həyata keçirilir. Xüsusilə, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi üçün tərbiyə işi tədbirlərinin keyfiyyətlə görülməsi, hərbi qulluqçuların mənəvi-psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi diqqət mərkəzində saxlanılır.

Bu baxımdan, tərbiyə işləri üzrə bölmədə təlimat-çı-psixoloq baş leytenant Cəmilə Ələkbərovanın əməyi böyükdür. O, çağırışçılarla aparılan adaptasiya prosesi haqqında ətraflı məlumat verərək bildirdi ki, ilk olaraq sosial-psixoloji çətinliklərdə üzləşən, yüksək dərəcədə psixoloji diqqət və nəzarət tələb edənlər müəyyənləşdirilir və müvafiq psixoloji məsləhətləşmələr aparılır. Onlarla söhbətlər edilir, səhhətləri ilə bağlı narahat edən hallar varsa, aidiyyəti üzrə məruzə olunaraq, aradan qaldırılması üçün komandir heyəti ilə müvafiq tədbirlər həyata keçirilir.

Adaptasiya dövrünün ilk 3 həftəsinin xüsusilə əhəmiyyətli olduğunu söyləyən təlimatçı-psixoloq onu da əlavə etdi ki, bu zaman ərzində hər bir çağırışçının fərdi psixoloji və xarakterik xüsusiyyətləri mütəmadi olaraq öyrənilir, onlar nəzarətdə saxlanılır.

Bundan əlavə, onların əlidəxili problemləri, qayğıları, hərbi xidmətə olan münasibətləri barədə ətraflı məlumat toplanılır, izahedici söhbətlər aparılır. Hərbi xidmətə qarşı yanlış fikirlər olduqda, onları müsbət istiqamətə yönəltmək üçün tədbirlər həyata keçirilir, Vətənə sevgi, məhəbbət hissləri aşılanır. Bunun üçün manqa və taqım komandirləri ilə qarşılıqlı fəaliyyət göstərdiyini bildirən baş leytenant C.Ələkbərova qeyd etdi ki, komandir heyətinə də hər bir əsgərə fərdi yanaşmağın, diqqət və qayğı göstərilməsinin vacib olduğu çatdırılır, hərbi qulluqçuların əhval-ruhiyyəsində müəyyən dəyişikliklər olduqda, dərhal məruzə edilməsinin vacibliyi xatırlanır.

Göründüyü kimi, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçılarla adaptasiya prosesi keyfiyyətli şəkildə həyata keçirilir. Bütün bunlar, gələcəkdə yüksək döyüş hazırlığının qorunub saxlanılmasını şərtlərindən vacib amillərdir.

leytenant X.Tağıyeva

DAXİLİ QOŞUNLARIN İDMAN KOMANDASI DAHA BİR UĞURA İMZA ATIB

Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, iyun ayının 28-dən 30-dək DİN-in İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında silahsız özünümüdafiə üzrə şəxsi və komanda birinciliyi uğrunda növbəti yarış keçirilib. Daxili Qoşunların yığma komandası yarışda 7 idmançı və 1 nümayəndə heyəti ilə təmsil olunub.

Şəxsi birincilik üzrə 65 kq çəki dərəcəsində 67987 saylı hərbi hissənin hərbi qulluqçusu leytenant Natiq Allahyarov, 75 və 90 kq çəki dərəcələrində 99713 saylı hərbi hissənin hərbi qulluqçuları çavuş Ramin Orucov və baş əsgər Müşfiq Hüseynov 1-ci yeri tutublar.

99713 saylı hərbi hissənin hərbi qulluqçusu baş leytenant Alim Məmmədov 70 kq çəki dərəcəsində, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Novruz Əliyev isə 85 kq çəki dərəcəsində 2-ci yeri qazanıb.

Bundan əlavə, 99713 saylı hərbi hissənin hərbi qulluqçuları baş gizir Elxan Aslanov 80 kq, baş çavuş Pərviz Racabov +90 kq çəki dərəcəsində kürsünün 3-cü pilləsində qərarlaşıblar.

Daxili Qoşunların yığması komanda birinciliyində II yeri tutub.

"Əsgər"

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏR GÜNÜ MÜNASİBƏTİ İLƏ "ƏSGƏR BAYRAMI" KEÇİRİLİB

26 iyun - Silahlı Qüvvələr Günü münasibəti ilə Gəndər və İdman Nazirliyinin təşkilatçılığı ilə iyun ayının 28-də "Əsgər bayramı" adlı tədbir keçirildi. Hərbçilərin asudə vaxtının səmərəli təşkilinə əlavə dəstək vermək məqsədilə təşkil edilən mərasimdə müxtəlif çoşun növlərinin-Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar Nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçuları, o cümlədən Mənəvi-psixoloji hazırlıq şöbəsinde muzey rəhbəri kapitan Anar Əhmədovun rəhbərliyi ilə Daxili Qoşunların 99713, 67987 və 16076 saylı hərbi hissələrindən, ümumilikdə, 30 nəfər hərbi qulluqçu, müvafiq təşkilatların nümayəndələri, tələbələr və faal gənclər iştirak ediblər.

Tadbiri giriş sözü ilə açan Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev hərbçiləri əlamətdar gün münasibəti ilə təbrik edərək, Azərbaycanın Silahlı Qüvvələrinin inkişafından, gənclərin vətənpərvərlik tərbiyəsindən danışıb.

Daha sonra adları çəkilən qurumların xidməti-döyüş fəaliyyətini əks etdirən videoçarxlar nümayiş etdirilib, xidmətdə fərqlənən hərbi qulluqçular "Fəxri Fərman" və müxtəlif qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, Daxili Qoşunların 5 nəfər hərbi qulluqçusu - leytenant Ruslan Abbasov, baş çavuş Əlişah Həşimov, çavuş Nicat Əsgərov və əsgər Mahir Əlsoltanov da mükafatlandırılan hərbi qulluqçuların arasında olublar.

Silahlı Qüvvələr gününə həsr olunmuş "Əsgər Bayramı" konsert proqramı ilə davam etdirilib.

leytenant N.Ağayeva

Zabitlərin metodiki hazırlığı

İNFORMASİYA MÜHARİBƏSİ: *psixoloji təsir və ona qarşı mübarizə vasitələri*

İstər beynəlxalq səviyyədə öz mövqelərini getdikcə itirən, istərsə də daxildə sosial partlayış, aclıq, səfalət, işsizlik, başlıcası isə ümidsizlik mühitində yaşayan Ermənistanın cinayətkar qruplaşmadan İrəvan şəhəri hərbi-siyasi rəhbərliyi qeyd olunan şəraitdən vətəndaşlarının fikrini yayındırmaq üçün son aylar ərzində cəbhə bölgəsində ardıcıl təxribatlara yol verir, dinc əhalimizin yaşayış məntəqələrini atəşə tutur, hətta qadağan olunmuş kimyəvi başlıqlı artilleriya mərmilərindən istifadə edir. Baş verən düşmən təxribatlarına qarşı Azərbaycan Ordusunun layiqli cavabı bizi ruhlandırmaqla bərabər, bu təxribatlara qarşı daim ayıq-sayıq olmağımızı, xüsusilə də hadisələrin sürətli inkişafı zamanı yayılan informasiyalara çevik reaksiya vermeyimizi tələb edir. Bu baxımdan müasir dövrdəki hərbi qarşıdurmaların tərkib hissəsi kimi informasiya təsirinin əhəmiyyəti, onun mahiyyəti və strukturu, informasiya təhlükəsizliyinin əsas vəzifələri, psixoloji əməliyyatların rolu və növləri, şəxsi heyətin müdafiəsi üsulları haqqında hər bir zabit hazırlıqlı olmalı, zərurət yarandığı anda proseslərə müdaxilə etməyi bacarmalıdır.

Hərbi qulluqçularımıza psixoloji təsirin mahiyyətini və xüsusiyyətlərini izah etmək, şəxsi heyətə müxtəlif növ sosial informasiya ilə işləmək vərdişləri aşılamaq, düşmən tərəfindən mənfi təsirli psixoloji məlumatların yayılmasına qarşı mübarizə aparmaq, bir sözlə, şəxsi heyətin psixoloji hazırlığının formalaşdırmaq üçün zabit heyəti tam hazırlıqlı olmalıdır.

Dünyada getdikcə qloballaşan və dərinləşən beynəlxalq münasibətlərin kəskinləşməsi, böhran və münaqişələrin dərinləşməsi, yeni-yeni müharibə ocaqlarının yaranması, mövcud vəziyyətdə hər bir dövlətin öz informasiya məkanına nəzarəti daha da gücləndirməli olduğunu, xüsusilə informasiya resurslarının ciddi mühafizəsi uğrunda mübarizədə sayıqlığını itirməməyi dövlətin başlıca vəzifələrindən biri kimi qəbul edilir. Dövlətlər əsas məqsədlərini həyata keçirmək, siyasi, iqtisadi və hərbi sahələrdə müvəffəqiyyət əldə etmək üçün xalqı dən informasiyanı əldə etmək uğrunda gizli və açıq şəkildə intensiv mübarizədə və yarışma-dadırlar. Əks tərəfin informasiya resurslarını ələ keçirən dövlət üçün bu resurslar və onlardan əldə edilən bilik, öz gücünü artırmaq, bütün sahələrdə rəqibdən üstün olmaq, gələcəkdə onun istənilən sahədə hücumlarını dəf etmək, eyni zamanda, öz maddi-mənvi dəyərləri-ni qorumaq üçün bir vasitədir. Odur ki, informasiya xammal ehtiyatı, enerji daşıyıcıları, faydalı qazıntılar və s. kimi milli strateji resurs olmaqla, dövlətçiliyin əvəzedilməz və əsas sərvətlərindən biri hesab olunmalıdır.

Texnologiyaların inkişafı ilə əlaqədar daha asan və tez əldə edilən informasiya dövlətin və cəmiyyətin özünü ifadə etməsi baxımından ideal vasitə hesab olunur. Bu səbəbdən, son zamanlar iqtisadiyyatda, siyasətdə və hərbi sahədə "informasiya əməliyyatı" və "informasiya mübaribəsi" terminləri geniş istifadə edilməkdədir. Dünyada informasiya mübaribəsi texnologiyalarının inkişafı və dövlətlər arasında baş verən hərbi və siyasi qarşıdurmalar belə deməyə əsas verir ki, yaxın gələcəkdə qarşı tərəf üzərində əsas üstünlük informasiyanın əldə keçirilməsi, onlara çevik reaksiya verilməsi, real vaxt rejimində qarşı tərəfin informasiya mənbələrinin məhv edilməsi ilə əldə olunacaqdır.

Dünya siyasi arenasında baş vermiş dəyişikliklər Azərbaycanın müstəqil dövlət kimi proqressiv fəaliyyətinə, ərazi bütövlüyünün pozulmasına, digər maraqlı dövlətlərdən asılı olmadan yüksələn xətlə inkişafına qarşı yaradılan süni problemlər onun beynəlxalq və daxili siyasətinə bir çox digər dövlətlərə nisbətən daha artıq dərəcədə təsir göstərmiş, o cümlədən milli təhlükəsizlik problemlərinə yanaşmada köklü surətdə dəyişikliklərin müəyyənləşdirilməsi və müvafiq tədbirlərin görülməsi zərurətini yaratmışdır.

Təhlükəsizlik – şəxsiyyətin, cəmiyyətin, dövlətin varlığının və proqressiv inkişafının etibarlı təminatı üçün labüd olan təhlükəsizlik mühitinin mövcudluğu deməkdir.

Müharibələrin, münaqişələrin tarixinə nəzər salsaq görərik ki, hələ qədim dünyada informasiyanın özlüyündə çox güclü bir silah olması qənaətinə gələrək, fiziki müharibə aparılarkən, eyni zamanda, onun tərkib hissəsi kimi İM-in aparılması zəruriliyini anlamağa başlayıblar. Eramızdan əvvəl dördüncü əsrdə Çində düşmənə qarşı informasiya təsirinin həyata keçirilməsi hərb sənətinin mühüm hissəsi sayılırdı.

Qələbə qazanmaq üçün mübarizə aparan tərəflər, öz qoşunlarının sayının artıq olması, guya düşünülmüş, qeyri-adi taktiki manevr edəcəkləri, qüvvələrinin və vasitələrinin üstünlüyü, yeni nəməlum silahlara malik olmaları, esirlərə qarşı loyal münasibət göstərmələri ilə bağlı əks tərəfə müraciətlər ünvanlayır, şəyiələr yayırdılar. Həmçinin, özlərinin hərbi qüdrətinin daha artıq olduğunu nümayiş etdirən manevrlər edir, qoşunlarının yenilməzliyi və s. haqqında rəy formalaşdırırdılar.

Çingiz xanın hərbi yürüşləri zamanı ordunun önündə xüsusi informasiyalarla "yüklənmiş" müəyyən qrup atlılar çapırdılar. Onlar Çingiz xanın ordusunun hədsiz dərəcədə güclü və amansız əsgərlərdən təşkil olunduğu haqqında xəbərlər yayaraq əhalidə qorxu, ruh düşkünlüyü yaranmasına nail olurdular. Bu cür psixoloji təsir üsullarından Makedoniyalı İsgəndər, Teymurləng və başqa məşhur sərkərdələr də istifadə etmişlər. Həmçinin, II Dünya müharibəsi zamanı Hitler və Stalin informasiyanın psixoloji təsirinin əhəmiyyətini dərindən anlamış, hətta bir çox taleyüklü əməliyyatların keçirilməsi zamanı uğurları da məhz bu təsirin sayəsində qazanmışlar. Beləliklə, tarixi baxımdan da informasiya təsiri mülki əhalinin və düşmən əsgərlərinin iradəsinə, şüuruna, hisslərinə, informas